*İdman klublarında*

# "Qaradağsement" həndbol klubunda milli komandanın ehtiyat qüvvəsi hazırlanır

***Son zamanlar ölkəmizdə komanda idman növləri inkişaf etməkdədir. Təmsilçilərimiz beynəlxalq arenalarda keçirilən turnirlərdə bir sıra nəticələr qazanıblar. İnkişaf etməkdə olan idman növlərindən biri də həndboldur. Həndbolun ölkəmizdə ənənələri var və bu idman növünü inkişaf etdirilməsində klubların da rolu az deyil. Belə klublardan biri "Qaradağsement" həndbol idman klubudur. Bugünlərdə klubun prezidenti Olimpiya çempionu, təcrübəli həndbol mütəxəssisi Lüdmila Şubina ilə görüşdük. Lüdmila xanım "Qaradağsement" klubunun fəaliyyəti, burada həndbolun inkişafı istiqamətində görülən işlər və.s haqqında bizə ətraflı məlumat verdi.***

*Sports" mərkəzində təşkil olunmuşdu. İran turnirdə iştak edən komandalar üçün hər cür şərait yaratmışdı. Həndbolçularımız bu dəfə də gözəl oyun nümayiş etdirərək, tam üstünlüklə rəqibləri üzərində qələbə çaldılar. Onlardan Səbinə Babayeva, Valentina Kulikova, Lyubov Kovaleva turnirin ən yaxşısı seçildilər. Onu da qeyd edim ki, iranlı həndbolçuların çıxışı mənim çox xoşuma gəldi. Onlar texniki və taktiki cəhətdən xeyli inkişaf ediblər. Bu ölkənin həndbolçuları daha da yaxşı oynamaq və öyrənmək üçün böyük həvəs göstərirdilər. Belə coşqunluq və əzmlə bir neçə müddətdən sonra İranın həndbolçu qızları aparıcı komandaların ciddi rəqibinə çevriləcəklər. Komandanın kapitanı*



məşqlərdə əsas diqqət idmançıların fiziki, texniki və taktiki hərəkətlərinin gücləndirilməsinə yönəldiyini diqqətə çatdırdı. Komandaya legioner idmançıların gətirilməsinin əleyhinə olmadığını deyən klub prezidenti komandada yerli idmançıların yer almasına üstünlük verdiyini də vurğuladı: *"Əgər biz həndbolu yüksək səviyyədə inkişaf etdirmək istəyiriksə, birinci növbədə, bu növ üzrə uşaq idmanına ciddi fikir verməliyik. Hazırda bu sahədə bizim müəyyən problemlərimiz var. Azərbaycan həndbolunun gələcəyi üçün balaca uşaqları indidən yetişdirmək lazımdır. Hər hansı uğurdan bir neçə ildən sonra danışa bilərik. Mən komandaya legioner oyunçunun gətirilməsinin əleyhinə deyiləm. Ancaq çox yaxşı olardı ki, biz öz idmançılarımızı yetişdirək. Yeniyetmə və gənclər arasında ümidverici idmançıların çox olması gələcəkdə güclü komandaların formalaşmasına zəmin yaradır. Bu, danılmaz faktdır. Hazırda paytaxtda və respublikamızın əksər rayonlarında uşaq-gənclər idman məktəbləri fəaliyyət göstərir. Həmin məktəblərin bir neçəsində həndbol bölməsi var. Bu məktəblərin komandaları arasında vaxtaşırı yarış və turnirlər keçirilsə, onların yarış təcrübələri də artar. Bu da Azərbaycanda həndbolun inkişafına müsbət təsirini göstərər. Komandaların sayının artırılması*

## Klubun təmsilçiləri yarışlarda fərqlənirlər

Lüdmila Şubina klubun yaradılmasında əsas məqsədin ölkəmizdə həndbolun inkişafı və kütləviliyinə nail olmaqdan ibarət olduğunu qeyd etdi: *""Qaradağsement" klubu artıq bir neçə ildir ki, fəaliyyət göstərir. Klubumuzun əsas vəzifəsi yeniyetmə və gənc həndbolçular yetişdirmək və yığma komandanın ehtiyat qüvvəsini hazırlamaqdır. Komandamızın heyətində yüksək potensiallı oyunçular çoxdur. Onlardan Səbinə Babayeva, Rəna Nəsrəddinova, Lyubov Kovalyova, Sultanə Tağıyeva və digərlərinin adlarını çəkmək olar. Həndbolçularımız indiyə qədər iştirak etdikləri yarışlarda yüksək nəticələr qazanıblar. Belə ki, "Qaradağsement"in təmsilçiləri həm ölkədaxili, həm də beynəlxalq turnirlərdə mükafatalayiq yerlər tutublar. Keçən il klubumuz üçün uğurlu oldu. Belə ki, həndbolçularımız iki beynəlxalq turnirdə yüksək nəticələr göstərdilər. Ötən ilin əvvəlində həndbolçularımız Rusiyanın Həştərxaq vilayətində həndbol üzrə qadınlar arasında Vladimir Qladçenkonun xatirəsinə həsr olunmuş beynəlxalq turnirdə qüvvəsini sınadı. Hər il ənənəvi keçirilən yarışda komandamızın üzvləri gözəl oyun nümayiş etdirərək, fəxri kürsünün birinci pilləsində qərarlaşdılar. Klubumuzun oyunçusu Sultanə Tağıyeva xatirə turnirinin ən yaxşı oyunçusu adını qazandı. "Qaradağsement"in iştirak etdiyi növbəti yarış İran İslam Respublikasının İsfahan şəhərində oldu. Yarışlar "Foolad Mobaraken Sepahan* ... *düşünülmüş oyununu, Hodı Reysinin sürətli reaksiyasını, Qəzalə Nazem və Sima Şiyasinin əzmli və cəld oyununu qeyd etmək istərdim. İran nümayəndəsi Məhəmməd Reza Saket "Qaradağsement"in oyunçularının çıxışlarını yüksək qiymətləndirdi. Biz ona üzərində Qız Qalasının təsviri olan boşqabı xatirə olaraq hədiyyə verdik. Yeri gəlmişkən deyim ki, "Qaradag" ASC idmançılarımızın mütəmadi olaraq təlim-məşqlərdə, beynəlxalq yarışlarda iştirakında bizə yaxından dəstək göstərir. Fürsətdən istifadə edib bu şirkətin rəhbərliyinə dərin minnətdarlığımı bildirirəm"*, - deyə o bildirdi.



## Komandaların sayının artırılması rəqabəti gücləndirəcək

"Qaradağsement" klubu məşqlərini "ABU-Arena" idman kompleksində təcrübəli məşqçilər Roman Muvıkin və Qalina Kamışlenkovanın rəhbərliyi altında keçirlər. Olimpiya çempionu

*rəqabəti gücləndirəcək"*. Olimpiya çempionu onu da bildirdi ki, "Qaradağsement" həndbol komandasının ikinci heyəti hazırlanır. Komandanın heyəti, əsasən, gənclərdən ibarət olacaq. Ölkəmizdə həndbolun ənənəsi olduğunu deyən Lüdmila Şubina hazırda bu sahədəki uğursuzluğun əsil səbəbini kişi və qadınlar arasında təşkil olunan ölkə çempionatlarının səviyyəsi ilə əlaqələndirir: *"Bir neçə yaş qrupları üzrə ölkə çempionatlarının keçirilməməsi həndbolumuzun inkişafına mənfi təsir edir. Təcrübəmə əsaslanaraq deyə bilərəm ki, yeniyetmə və gənclər arasında yaş qrupları üzrə mütəmadi birincilik və çempionatların keçirilməsi çox yaxşı olardı"*.

Qarşıda "Qaradağsement"in həndbolçularını bir sıra yarışlar gözləyir. Klubun təmsilçiləri bu yarışlara məsuliyyətlə hazırlaşırlar. Ümid edirik ki, "Qaradağsement" klubu növbəti turnirlərdə də onlara bəslənilən etimadı doğruldacaq.

***Esmira Orucova***